**Toğrul Vaqif oğlu Quluzadə**
***Bakı Dövlət Universiteti***
***Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının magistrantı***
quluzadtogrul@gmail.com

## AŞIQ ƏLƏSGƏRİN HƏYATI VƏ ŞEİRLƏRİ DÖVRİ MƏTBUATDA

***Xülasə:*** *Söz ustadı, el sənətkarı Aşıq Ələsgərin zəngin yaradıcılıq irsinin öyrənilməsi Azərbaycan şifahi xalq ədəbiyyatının öyrənilməsi demək olduğu kimi, Azərbaycan milli-ədəbi xəzinəsinin nə qədər dərin və ülvi olduğunu anlamaq üçün unikal vasitədir. Şairin irsinin görkəmli şəxsiyyətlər tərəfindən tədqiq edilməsi və mənimsənilməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır. Sənətkarın xatirəsini əbədiləşdirmək üçün müxtəlif dövlət əhəmiyyətli tədbirlərin keçirilməsi və bu kimi səylər ölkəmizdə Aşıq Ələsgər şəxsiyyətinə verilən dəyərin dərəcəsini göstərir.*

***Açar sözlər:*** *Aşıq Ələsgər, Azərbaycanda aşıq sənəti, Aşıq Ələsgər irsi, aşıq sənətinin çap tarixi, aşıq şeirləri Azərbaycan mətbuatında.*

**Togrul Vaqif oglu Guluzada**

### Ashig Alasgar's life and poems in periodicals

***Abstract:*** *As the study of the creative heritage of the master of words, folk artist Ashig Alasgar is a unique opportunity to understand how deep and sublime the national-literary treasury of Azerbaijan is, it is also the study of Azerbaijani oral folk literature. The research and absorption of the poet's legacy by researchers means utmost importance in this regard. Holding different functions at state level and other deeds like this attests to the value that is bestowed upon Ashig Alaskar's personality.*

***Keywords:*** *Ashig Alasgar, ashig art in Azerbaijan, Ashig Alasgar heritage, print history of ashig art, ashig poems in the Azerbaijani press.*

**Тогрул Вагиф оглу Гулузаде**

### Жизнь и стихи Ашуга Алескера в периодических изданиях

***Резюме:*** *Изучение богатого творческого наследия мастера слова, народного артиста Ашуга Алескера, а также изучение азербайджанской устной народной литературы является уникальным инструментом для понимания того, насколько глубока и возвышенна национально-литературная сокровищница Азербайджана. Важное значение в этом отношении имеет изучение и освоение наследия поэта выдающимися личностями. Проведение различных мероприятий государственного значения и такие усилия по увековечиванию памяти артиста показывают, насколько ценна личность Ашуга Алескера в нашей стране.*

***Ключевые слова:*** *Ашуг Алескер, ашугское искусство в Азербайджане, ашугское наследие Ашуга, печатная история ашугского искусства, ашугские стихи в азербайджанской прессе.*





Aşıq Ələsgər Azərbaycanın şifahi xalq ədəbiyyatının önəmli siması olan el sənətkarı kimi, xalqımızın ədəbi irsinə öz adını həkk etməyi bacarmışdır. Uşaq yaşlarından təhsil ala bilməyən Ələsgər, sözü, şeri el aşıqlarından və atasından əxz ermişdir. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı soyqırımı Göyçədən də yan keçməmiş, mahalı viran ermiş, insanlar isə köçkün kimi başqa ərazilərə pənah gətirmişlər. Əvvəlcə Yanşaqda yaşayan aşıq sonralar Tərtərə köçmüşdür. Sənətkarı geydiyi bütün yerlərdə sevib-əzizləsələr də, o öz doğma kəndi üçün çox darıxırdı. Həyatını şadlıqlarda keçirən aşıq tez-tez keçmiş günlərini yada salır, qocalıq və dünya barəsində düşünüb qüssələnirdi.

1921-ci ildə sənətkar yenidən Ağkilsə kəndinə qayıtmış və ömrünün son illərini orada keçirmişdir. 1926-cı ildə vəfat edən Aşıq Ələsgər doğulduğu Ağkilsə kəndində dəfn edilmişdir. 105 illik uzun ömründə saysız-hesabsız əsərlər yaratmış bu sənətkarın qoyub getdiyi irs öyrənilməyə ehtiyaclıdır. Aşığın əsərləri toplanıb kitab halına salınmış, ancaq bütün şerləri, qoşmaları çap üzü görə bilməmişdir. Bununla belə, Dədə Ələsgərin geniş yaradıcılıq fəaliyyətinin əksər hissəsi dövrümüzə qədər gəlib çata bilib.

Aşıq Ələsgərin yaradıcılığı daima dövlətimizin diqqət mərkəzində olmuşdur. 1972-ci ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyi Moskvada qeyd olunmuşdur. Ulu öndərin 24 noyabr 1997-ci il Sərəncamına əsasənisə aşığın 175 illiyi Azərbaycanın hər yerində böyük təntənə ilə qeyd olunmuşdur.

Aşıq Ələsgərin ilk mətbu əsərləri - “Dağlar”, “Bizim dağlar” şeirləri onun ölümündən sonra – 1927-ci ildə “Yeni kənd” jurnalında çap olunmuşdur.

Aşığın şeirlərini ilk dəfə ədəbiyyatşünas, folklorçu Hümmət Əlizadə toplamışdır. 1929-cu ildə nəşr olunan "El ədəbiyyatı nümunələri" adlı kitabın birinci cildində ilk dəfə olaraq göyçəli Aşıq Ələsgər haqqında qısa məlumat, onun digər aşıqlarla deyişmələri, təcnislər, gözəlləmələr göstərilmişdir.

Həmin kitabın 1930-cu ildə nəşr olunmuş ikinci cildində Aşıq Ələsgərin 14 şeirinə yer verilib. "Çərşənbə günündə, çeşmə başında", "Qabiliyyətdə, mərifətdə, camalda", "Durum dolanım başına", "Can qurban eyləsən layiqdi, layiq", "Bir bölük pərilər, pərizadələr", "Eşq oduna yanan aşkara yanmaz" tipli şeirlər bu qəbildəndir.

Sonralar Hümmət Əlizadə aşığın boya-başa çatdığı yerləri gəzmiş, onun qohumlarından, dost-tanışlarından öyrənib cəm etdiyi şerləri 1934, 1935 və 1937-ci illərdə kitab halında "Aşıq Ələsgər" adı ilə çap etdirmişdir. Alimin 1934-cü ildə "Azərnəşr" nəşriyyatında buraxdığı kitabında aşığın tərcümeyi-halı, bir sıra lirik şeirləri mövcuddur. 1935-ci ildəki kitabda həcvlər, deyişmələr, tərifləmələr, təcnislər və Aşıq Ələsgərə bənzətmələrə yer verilib. 1937-ci ildə buraxılan kitab isə daha təkmilləşdirilmiş və dolğun məzmuna malikdir. Aşıq Ələsgərin heç bir əsərinin onun sağlığında çap olunmadığına, ancaq hafizələrdə qaldığına görə kitabdakı şeirlərdə müəyyən təhriflər, misraların yerdəyişməsi qaçılmaz olaraq öz əksini tapıb.

Ümumiyyətlə, aşığın müxtəlif illərdə çap olunmuş kitablarını bir-birilə müqayisə etdikdə onların hər birinin əvvəlkilərdən xeyli fərqə malik olduğu, bəzi təhriflərə yol verildiyi özünü göstərir.

Aşıq Ələsgərin nəvəsi, Aşıq Talıbın oğlu İslam Ələsgər ustad sənətkarın irsini öyrənənlərin sırasına daxildir. Bu işdə ona atası yaxından çox kömək etmişdir.

İslam Ələsgərin topladığı materialların digər bir hissəsini Elmlər Akademiyasına təqdim etmiş, sonralar tapılmış bir sıra əsərləri də onlara əlavə edərək müxtəlif nəşriyyatlarda dəfələrlə kitab şəklində çapdan buraxdırmışdır.

1966-cı ildə Mirzə İbrahimovun müəllifi olduğu "Aşıq poeziyasında realizm" adlı 84 səhifəlik kitabı "Elm" nəşriyyatında Məmd Arif Dadaşzadənin redaktorluğu ilə nəşr edilmişdir. Kitabda Aşıq Ələsgər yaradıcılığına da yer verilmişdir.

1970-ci ildə V.Vəliyevin 443 səhifəlik "Azərbaycan şifahi xalq ədəbiyyatı" adlı kitabı Azərnəşrdə nəşr edilmişdir. Kitabın 216-218-ci səhifələrində Aşıq Ələsgər poeziyası haqqında bəhs edilir.

1972-ci ildə Məhəmmədhüseyn Təhmasib 326 səhifədən təşkil olunmuş "Gözəllik nəğməkarı" adlı kitabının 29-36-cı səhifələrində Aşıq Ələsgər yaradıcılığı barəsində söz açmışdır. Sözügedən kitab "Elm" nəşriyyatı tərəfindən işıq üzü görmüşdür.

Osman Sarıvəllinin Aşıq Ələsgərin 150 illik yubileyi ilə əlaqədar olaraq yazdığı "Qüdrətli şair, ustad sənətkar" adlı kitabı Aşıq Ələsgər yaradıcılığa həsr edilmiş ilk və ən önəmli kitablardan hesab etmək olar. Kitab 1971-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən nəşr olunmuşdur.

Aşıq Ələsgərin dövri mətbuatda dərc olunan şeirləri olduqca çoxdur. 1927-ci ildə şairin "Dağlar", "Bizim dağlar" şeirləri "Yeni kənd" jurnalının 3-cü nömrəsinin 61-65-ci səhifələrində çap edilmişdir. Elə həmin ildə aşığın Həcərə həsr etdiyi şeiri və Həcərin ona cavabı "Yeni kənd" jurnalının 6-7-ci nömrələrinin 39-41-ci səhifələrində yer almışdır.

1932-ci il oktyabrın 12-də sənətkarın "Kəklik" şeiri, 1934-cü il dekabrın 22-də isə bir dodaqdəyməzi "Ədəbiyyat" qəzerində dərc edilmişdir. 1935-ci il fevralın 6-da "Can desin", "Oynamasın", "Yanıma gəlsin", "Kəklik", "Bu gün" adlı şeirləri, sentyabrın 13-də "İkibaşlı təcnis", "Oldu", "Gözəl qız" adlı şeirləri, aprelin 23-də "Qadan alım" adlı qoşması "Ədəbiyyat" qəzetində çapdan çıxmışdır.

"Ədəbiyyat" qəzetinin 1937-ci ilin 27 avqust tarixli nömrəsiində Dədə Ələsgərin qoşmalarına yer verilmiş, 27 sentyabr buraxılışında isə sənətkarın "Gözəl səndə nə qaydadır" şeiri dərc edilmişdir.

"Gülpəri", "Talan oldu", "Yeridi", "Baxın" adlı şeirləri isə 1937-ci ildə "Revalyusiya və kultura" jurnalının 4-cü nömrəsində çap edilmişdir.

Ustadın "Narın üz", "Düşdü", "Çıxmışdı" adlı şeirləri 5 iyun 1938-ci ildə "Ədəbiyyat" qəzetində, "Dad sənin əlindən, a qanlı fələk" şeiri 14 may 1940-cı il "Kommunist" qəzetində dərc edilmişdir.

1955-ci ildə "Azərbaycan" jurnalının 5-ci nömrəsinin 68-69-cu səhifələrindş Aşıq Ələsgərin qoşmalarına, 69-70-ci səhifələrində isə təcnislərinə yer verilmişdir.

1967-ci ildə "Elm və həyat" jurnalının 7-ci nömrəsində "Aşıq Ələsgərin çap olunmamış şeirləri" başlığı altında material dərc edilmişdir. Həmin il iyunun 27-də isə "Aşıq Ələsgərin yeni tapılmış şeirləri" adlı mətn "Yenilik" jurnalında verlmişdir.

"Bakı" qəzetinin 24 fevral 1967-ci ilin tarixli nömrəsində ustadın "Məni", "Görəndə", "Dünyaya", "Gəlmədi" adlı şeirləri çap olunmuşdur.

1970-ci illərin əvvəllərində Aşıq Ələsgərin 150 illik yubiuleyi ərəfəsində sənətkarın şeirlərinə bir söx dövri mətbuat orqanları, o cümlədən "Kommunist", "Bakı", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi", "Ədəbiyyat və incəsənət",





"Sovet Ermənistanı", "Elm və həyat", "Ulduz", "Pioner", "Göyərçin" qəzet və jurnalları daha tez-tez müraciət etmişlər. Belə ki, "Şahpəri", "Bahalıq" müxəmməsləri "Azərbaycan gəncləri" qəzetində (14 avqust 1971-ci il), "Çeşmə başında", "Mollalar" şeirləri "Kommunist" qəzetində (5 iyun 1972-ci il), "Aşıq olub diyar-diyar gəzənin", "Pristav, naçalnik gələndə kəndə" şeirləri "Bakı" qəzetində (8 iyun 1972-ci il), "Məni", "Yavaş get", "Varıymış", "Yaxşı xanım" şeirləri "Ədəbiyyat və incəsənət" qəzetində (9 iyun 1972-ci il), "Ay qız" şeiri "Azərbaycan müəllimi" qəzetində (9 iyun 1972-ci il) dərc olunmuşdur.

"Aşıq Ələsgərin hikmətli sözlərindən nümunələr" başlığı altında bir sıra şeirlər "Pioner" jurnalında (1972, №5), "Gərəkdi", "Cilvələnibdi" şeirləri "Kənd həyatı" jurnalında (1972, №5), "Görmədim" şeiri "Kirpi" jurnalında (1972, №9), "Pişik" şeiri "Göyərçin" jurnalında (1972, №5) işıq üzü görmüşdür.

O illərdə İrəvanda çap olunan "Sovet Ermənistanı" qəzeti də ustad sənətkarın yaradıcılığına yer ayırmışdı. Qəzetin 8 yanvar 1972-ci ilin tarixli nömrəsində Aşıq Ələsgərin "Gəlmədi", "Birə yüz", "Bilsələr", "Gördüm" şeirləri, 6 iyun 1972-ci ildə "Qalmadı" şeiri, 20 iyun 1972-ci ildə isə "Gördüm", "Yaylaq" şeiri verilmişdir. Daha sonralar, yəni 24 avqust 1978-ci ildə "Sovet Ermənistanı" qəzetində aşığın "Bir özgəsinə", "Gözəl", "Cim-cim" şeirləri, 12 yanvar 1980-ci ildə isə "Sarı qız", "İndi", "Dedilər", Yadıma düşdü", "Çəpinə" şeirləri dərc edilmişdir.

Müstəqillik illərində dövri mətbuatda Aşıq Ələsgərin əsərlərinə geniş yer ayrılmışdır. "Ədəbiyyat" qəzetində "İbtidai ustaddan dərs almışam", "Yalvarıram" şeirləri (15 mart 1991-ci il), "Açıq söz" qəzetində "Bahalıq" şeiri (21 mart 1996-cı il), "Respublika" qəzetində Novruz bayramına həsr olunmuş şeiri (20 mart 2003-cü il), "Yeni Azərbaycan" qəzetində "Bu dünyada üç şey başa bəladı" şeiri (17 iyul 2010-cu il) çıxmışdır. Bundan başqa 2006-cı ildə "Azərbaycan" jurnalı, 2008-ci və 2011-ci ildə illərdə "Qobustan" jurnalı aşığın bir sıra şeirlərini dərc etmişdir.

2011-ci ildə ustad aşığın 190 illik yubileyi təntənə ilə qeyd olunmuş, Heydər Əliyev Sarayında yubiley tədbiri keçirilmişdir. Həmin ildə Gədəbəydə "Aşıq Ələsgər adına Aşıq Məktəbi" açılmışdır. Azərbaycan Aşıqlar Birliyi 2011-ci ili "Aşıq Ələsgər ili" elan etmişdir. Bununla bağlı, respublikamızda çıxan qəzet və jurnallarda Aşıq Ələsgərin həyat və yaradıcılığına həsr olunmuş çoxsaylı məqalələr dərc olunmuş, həmçinin onun yaradıcılığından numunələrə də yer ayrılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Aşıq Ələsgər Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

2021-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illiyi tamam oldu. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi" haqqında imzaladığı 18 fevral 2021-ci il tarixli Sərəncama əsasən ölkə üzrə bütün elm, təhsil və mədəniyyət müəssisələrində aşığa həsr olunmuş təntənəli tədbirlər həyata keçirildi. Sərəncamda deyilir: "Aşıq Ələsgərin zəngin poetik irsinin geniş tədqiqi, nəşri və təbliğinin mühüm mərhələsi mədəni-mənəvi dəyərlərimizin bütün daşıyıcılarına həmişə qədirbilənliklə yanaşan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Sənətkarın yubileyləri məhz Ulu Öndərin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd edilmişdir. Böyük söz ustadının respublikamızda və onun

hüdudlarından kənarda 150 illik yubiley mərasimləri keçirilərkən əlamətdar hadisə baş vermiş, azərbaycanlıların əzəli yurdlarından olan qədim Göyçə mahalında, doğulduğu kənddə Aşıq Ələsgərin qəbirüstü abidəsi ucaldılmışdı. Həmin əzəmətli büst soydaşlarımız öz dədə-baba torpaqlarından didərgin salındıqdan sonra erməni vandalları tərəfindən dağıdılsa da, milli-mədəni varlığımızın tərkib hissəsinə çevrilmiş Aşıq Ələsgər irsi silinməz tarixi yaddaş rəmzi kimi yaşamaqdadır" [1].

Yubiley ərəfəsində dövri mətbuatda Aşıq Ələsgər haqqında çoxlu yazılar çap olunmuşdur. Məsələn, Mahmud Allahmanlının "Adım Ələsgərdi, əslim Göyçəli" adlı məqaləsində Aşıq Ələsgərin maraqlı poetik örnəklərindən nümunələrə yer verən müəllif bildirir ki, buradakı söz və misraların məna yaddaşı, mətn daxilindəki yeri bütünlükdə özü səviyyəsində bir ucalığı işarələyir. Burada həmçinin qeyd olunur ki, Aşıq Ələsgərin ədəbi irsi bütünlükdə məzmunu, təsvir və təqdim üsulları, hadisələrə yanaşma tipologiyası ilə nəzərə çarpır (Kredo. - 2021.- 21 aprel. - S.4).

Bundan başqa, Göyərçin Abidqızının "Özün getdin, sözün qaldı" ("Ədalət" qəzeti, 2021, 8 may), Ələddin Allahverdiyevin "Milli-mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş etmiş dahi sənətkar" ("Xalq qəzeti", 2021, 30 mart), Qədir Aslanın "Aşıq Ələsgərin 200 illik yubileyi qarşısında: XX əsrin müdrik ozanı, korifey sənətkarı" ("Respublika2 qəzeti, 2021, 13 mart), Zəfər Orucoğlunun "Aşıq Ələsgərin saz-söz dünyası " ("Üç nöqtə" qəzeti, 2021, 1 iyul), Nazilə Əliyevanın "Özün getdin, sözün qaldı dünyada..." ("Azərbaycan" qəzeti, 2021, 9 iyul), Etibar Əliyevin "Saz-söz sənətinin Dədə Ələsgəri" ("Mədəniyyət" qəzeti, 2021, 16 iyul), Füzuli Bayatın "Aşıq Ələsgərdə təsəvvüf rəmzləri" (525-ci qəzet, 2021, 22 sentyabr), Kamal Camalovun "Əxlaq və mənəviyyat dərsi deyən ustad müəllim" ("Azərbaycan müəllimi" qəzeti, 2021, 1 oktyabr), Salman Balakişiyevin ""Hörümçək toru"nun açılması..." (525-ci qəzet, 2021, 20 oktyabr) və başqa məqalələri kütləvi informasiya vasitələrində işıq üzü görmüşdür [3].

Son illərdə ustad sənətkarla bağlı məqalələrin və ustad aşığın şeirlərinin davamlı çap olunması da həmin Sərəncamın gerçəkləşməsi yönündə atılan uğurlu addımlar kimi qiymətləndirilə bilər. Bütün bunlar sübut edir ki, Azərbaycan dövləti xalqımızın görkəmli sənətkarlarının yaratdığı zəngin ədəbi-bədii irsi hər zaman diqqətdə saxlayır, onun təbliğinə və yaşadılmasına qayğı göstərir.

## ƏDƏBİYYAT

1. *"Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: İlham Əliyev: Bakı şəhəri, 18 fevral 2021-ci il / https://president.az/az/articles/view/50672*

2. *Aşıq Ələsgər - 190: Biblioqrafiya / Tərt. S.Əsədova, G.Misirova; ixt. red. və burax. məsul K.Tahirov; red. M.Vəliyeva; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2011.- 150 s.*

3. *Aşıq Ələsgər - 200 [Elektron resurs]: Daycest / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. A.Məmmədova; ixt. red. K.Tahirov. - Bakı: Azərbaycan Milli Kitabxanası, 2021. - 39 s.*

4. *Muxtarova İlhamə. "Aşıq Ələsgər irsinin toplanması və nəşri" // Azərbaycan Milli Elmlər Akademiyası "Ədəbiyyat Məcmuəsi" Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri, 2018.*